# Mündəricat


01 Nordic ibtidai məktəblərində tədrisin keyfiyyəti, tədrisdə məhdudiyyətlər və onların şagird nailiyyəti ilə əlaqəsi

02 2024-cü il Gender Hesabatı

03 Həyatı yaxşılaşdırmaq üçün sosial və emosional bacarıqlar: 2023 OECD Sosial və Emosional Bacarıqlar tədqiqatının nəticələri

04 İqlim dəyişikliyinin təhsilə təsiri




Təhsildə Briefs Series, Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən hazırlanmış qısa nəşrlər toplusunun cari sayı təqdim olunmuşdur.
Cari nəşrdə Oslo Universiteti və Göteborq Universitetinin tədqiqatçıları tərəfindən "Nordic ibtidai məktəblərində tədrisin keyfiyyəti, tədrisdə məhdudiyyət-lər və onların şagird nailiyyəti ilə əlaqəsi" adlı araşdırma məqaləsi yer alır. Araşdırmanın məqsədi Nordic ibtidai məktəblərində tədrisin keyfiyyəti, tədrisə qo-yulan məhdudiyyətlər, riyaziyyat və təbiət elmləri üzrə şagird nailiyyətlərinə təsiri- ni araşdırmaqdır. Araşdırma müəllim dəstəyi, təlimat aydınlığı və koqnitiv aktivləşdirmə kimi tədris keyfiyyətinin müxtəlif aspektlərinin bu fənlərdə şagird naili-yyətlərinə təsirini aşkara çıxarır.
Aparılan araşdırma 2011, 2015 və 2019-cu illər üzrə Beynəlxalq Riyaziyyat və Elm Tədqiqatının (TIMSS) nəticələrinə əsaslanır. İlk olaraq tədris keyfiyyəti ilə şagird nailiyyətləri arasında əlaqə öyrənilmişdir. Aydın olur ki, sinif otaqlarında zəruri tədris mühiti riyaziyyat və təbiət elmlərində daha yüksək təlim nəticələri ilə əlaqələndirilir. Belə ki, tədris üçün sinif otaqlarında resursların məhdudluğu, nizam-intizamsız şagirdlər və ya dil maneələri təhsilalanların təlim nəticələrinə mənfi təsir göstərir. Bundan əlavə, zamanla tədris keyfiyyətindəki dəyişikliklər və tədris məh-dudiyyətləri də araşdırma mövzusu olmuşdur. Nəticədə Skandinaviya ölkələrində 2011-2019-cu illərdə tədris keyfiyyətinin, təlim nəticələrinin azalması və tədrisdə məhdudiyyətlərin artması müşahidə olunub. Həmçinin, Finlandiya istisna olmaqla, zaman keçdikcə şagirdlərin öyrənməsi və təlimatın aydın olması üçün müəllim dəstəyinə ehtiyac məqalədə öz əksini tapır.

## Nordic ibtidai məktəblərində tədrisin keyfiyyəti, tədrisdə məhdudiyyətlər və onların şagird nailiyyəti ilə əlaqəsi

Tədqiqatda həmçinin sinifdə baş verən tədris keyfiyyətini təsvir etmək üçün aşağıda əks olunan "Üç Əsas Ölçü" adlandırılan çərçivədən istifadə edilmişdir.
1. Sinfi İdarəetmə:
- Keyfiyyətli öyrənmə mühiti;
- İntizamlı davranışın olmaması;
- Zamandan səmərəli istifadə;
- Gündəlik işlər, qaydalar və nəticələrin aydınlaşdırılması;

2. Dəstəkləyici Mühit:
- Fərdi öyrənmə dəstəyi;
- Müəllim-şagird və şagird-müəllim münasibətləri;
- Tədris aydınlığı;
- Maraqlı tədris;

3. Koqnitiv aktivləşdirmə:
- Koqnitiv cəhətdən çətin öyrənmə tapşırıqları;
- Koqnitiv qeyd olunmanın simulyasiya edilməsi;
- Konseptual anlayışın təşviq edilməsi;
- İntellektual düşünmə və inkişafla məşğul olmaq;

Bu ölçülər Nordic ibtidai məktəblərində tədrisin keyfiyyətini izləmək və qiymətləndirmək üçün hərtərəfli çərçivə təmin edir. Onlar sinif idarəçiliyinin müxtəlif aspektlərini, dəstəkləyici öyrənmə mühitinin yaradılmasını, şagirdlər arasında koqnitiv aktivliyin və tənqidi düşünmə bacarıqlarının təşviqini əhatə edir.

Eyni zamanda, araşdırmada Skandinaviya ölkələrində müəllim dəstəyi ilə riyaziyyat nailiyyətləri arasında əhəmiyyətli əlaqələr haqqında məlumat verilir. Belə ki: Danimarkada müəllim dəstəyi, şagirdlərin riyaziyyat fənnindən nailiyyəti və təlimat aydınlığı arasında müsbət, əhəmiyyətli əlaqənin mövcudluğu statistik təhlildən, 37,2 reqressiya əmsalından olduğu aydın olmuşdur. Bu da onu göstərir ki, müəllim dəstəyi və təlimat aydınlığının bir vahid artırılması riyaziyyat üzrə nailiyyətlərin 37,2 bal artmasına uyğundur.



Finlandiyada da Danimarkada olduğu kimi müəllim dəstəyi və riyaziyyat nailiy-yətləri ilə təlimat aydınlığı arasında müsbət və əhəmiyyətli əlaqə izlənil-mişdir. Belə ki, reqressiya əmsalı 20,4-dür, yəni müəllim dəstəyinin və təlimatın aydınlığının bir vahid artırılması riyaziyyat nailiyyətinin 20,4 bal artmasına uyğundur.

Norveçdə də müəllim dəstəyi və riyaziyyat nailiyyəti ilə təlimat aydınlığı arasında əlaqənin də müsbət əhəmiyyətliliyi qeyd olunmuşdur. Reqressiya əmsalı 28,6-dır, bu da müəllim dəstəyi və təlimat aydınlığının bir vahid artırılması riyaziyyat nailiyyətinin 28,6 bal artmasına uyğundur.

İsveç və Danimarkada isə müəllim dəstəyi və şagirdlərin təbiət fənni üzrə nailiyyəti ilə təlimat aydınlığı arasında heç bir əhəmiyyətli əlaqə müşahidə edilmə-mişdir. Belə ki, reqressiya əmsalı 0-dır və İsveçdə bu amillər arasında birbaşa əlaqənin olmadığının göstəricisidir. Norveç və Finlandiyada isə müəllim dəstəyi və təlimat aydınlığını bir vahid artırmaq təbiət fənni üzrə şagirdin akademik göstəricilərinin müvafiq olaraq 6,9 və 14,8 bal artmasına səbəb olmuşdur. Bu da cüzi təsirin göstəricisidir. İsveçdə isə təbiət elmləri sahəsində fəaliyyətin aktivləşdirilməsi şagird nəaliyyətinə güclü müsbət təsir göstərmişdir. (50,3 bal). Məhdudiyyətlər bütün ölkələr-də elmi inkişaflarla əhəmiyyətli dərəcədə əlaqəlidir. Eyni zamanda, daha az məhdudiyyət, xüsusən Finlandiyada daha yüksək nailiyyətlərlə əlaqələndirilmişdir.

Ümumiyyətlə, Danimarka, Finlandiya və Norveç Nordic ibtidai məktəblərində riyaziyyat nailiyyətləri ilə müəllim dəstəyi və təlimat aydınlığı arasında müsbət, əhəmiyyətli əlaqə nümayiş etdirilir. Bununla belə, qeyd etmək lazımdır ki, İsveçdə bu əlaqə əhəmiyyətli deyil. Bu da digər amillərin İsveç siniflərində riyaziyyat üzrə nailiyyətlərdə daha mühüm rol oynaya biləcəyini göstərir.

Son olaraq araşdırmada aşağıdakı tövsiyyələr öz əksini tapır.

- Skandinaviya ölkələrində riyaziyyat və təbiət fənlərində nailiyyətlər üçün müəllim dəstəyi, təlimatın aydınlığı və idrak aktivləşdirilməsi vacibdir.
- Yüksək ixtisaslı müəllim hazırlığı və tədris keyfiyyətinin artırılması şagird nailiyyətlərini yaxşılaşdıra bilər.
- Daha inklüziv tədris strategiyaları üçün müəllim hazırlığında və peşəkar inkişafda uyğunlaşmalar sinif müxtəlifliyi problemlərini həll etmək üçün strategiyalar həyata keçirilməlidir.

Mənbə: Teig, N., Nilsen, T., & Hansen, K. (2024, April). Teaching Quality, Limitations to Teaching, and Their Links to Student Achievement: Insights from Nordic Primary Schools. IEA Compass: Briefs in Education No.23. IEA

# 2024-cü il Gender Hesabatı

Qlobal Təhsil Monitorinqi Hesabatı illik olaraq UNESCO tərəfindən nəşr olunur. Nəşrin cari sayı "2024-cü il Gender Hesabatı" adında təqdim olunur. Hesabat 2030 Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaqda təhsildə gender paritetinə nail olunması istiqamətində irəliləyişi qiymətləndirir.
Hesabatda qeyd olunur ki, qlobal miqyasda təhsildə iştirak və nailiyyətlərdə gender paritetində irəliləyiş olsa da təhsilə çıxışda son on ildə stabillik müşahidə edilir.
Belə ki, qızların təhsildə iştirakının artmasına baxmayaraq, bu tendensiya oğlanlara, xüsusən də sosial təminatı aşağı ailələrdən olan uşaqlara mənfi təsir göstərir. Qlobal miqyasda ibtidai və orta təhsildə gender bərabərliyinə nail olunsa da ali təhsildə qeyri-bərabərlik hələ də müşahidə olunmaqdadır. Çünki ali təhsildə qadın əməkdaşların sayı kişi əməkdaşlarının sayından çoxdur.
Hesabatda, Sub-Sahara Afrika iqtisadi və struktur maneələrə görə bütün təhsil səviyyələrində gender paritetinə nail olmaqda əhəmiyyətli çətinliklərlə üzləşdiyi öz əksini tapır. Xüsusilə Afrikada qızların əksəriyyətinin məktəbdən yayınma nisbətləri yüksək olaraq qalır ki, bu da gender bərabərsizliyini aradan qaldırmaqda böyük maneələr yaradır. Həmçinin hesabatda buna səbəb kimi bölgədə qızların məktəbə gec getməsi və sinifdə qalmaq prosesinin təkrarlanması amilləri göstərilir. İbtidai təhsilin vaxtında başa çatdırılmasında qlobal gender paritetinə nail olunsa da, Sahara-altı Afrikada məktəbi bitirmə faizi oğlanlarda yüksək olaraq qalır.
Dayanıqlı İnkişaf Məqsədlərinin 4 meyarlarına çatmaqda irəliləməni izləmək səylərinə baxmayaraq gender bərabərliyi hədəflərini müəyyənləşdirmək problem olaraq qalmaqdadır. Eyni zamanda Dayanıqlı İnkişaf Məqsədlərinin 4-cü meyarının ikinci bəndinə əsasən orta təhsilin başa çatması ilə bağlı qlobal gender fərqi azalmasına baxmayaraq bir çox ölkələrin bu istiqamətdə məqsədlərinə çatmadığı hesabatda öz əksini tapır.

Həmçinin bir çox ölkələrdə təhsildə gender paritetinə doğru irəliləyişlər əldə olunsa da fərqlər, xüsusən də sosial amillərə görə təcrid olunma davam etməkdədir.
Təlim nəticələrində gender boşluqları fənlər və bacarıq səviyyələri üzrə dəyişir. Qlobal miqyasda qızlar oxu bacarıqlarında oğlanları üstələyirlər. Lakin, bununla belə oğlanlar ibtidai riyazi bacarıqlarda cüzi üstünlüklərə malikdirlər ki, bu da aşağı orta təhsildə fərqlənir. Belə ki, bunun əksinə olaraq elmdə 4-cü sinifdə təhsil alan qızlar oğlanları üstələyir və 8-ci sinifdə bu fərq daha da genişlənir.
Qeyd edək ki, Koreya Respublikası istisna olmaqla, qeydiyyat nisbəti daha yüksək olan ölkələrdə qadınların xeyrinə daha böyük boşluqlar müşahidə olunur. Qadınların kişilərdən daha çox qəbul olunma tendensiyası yaranır. Həmçinin, texniki-peşə təhsilində (TKT) gender fərqi kişilərin lehinədir. 146 ölkədən 40-da kişilərin xeyrinə əhəmiyyətli fərq müşahidə olunur. İştirak nisbətləri ölkələr arasında geniş şəkildə dəyişir. Belə ki, bu istiqamətdə ən aşağı göstəricilər Karib hövzəsi, Sakit okean və Sub-Sahara Afrikasında, ən yüksək göstəricilər isə Avropada müşahidə olunduğu hesabatda öz əksini tapır.

Hesabatda informasiya və kommunikasiya texnologiyalarının (İKT) təhsilə təsiri vurğulanır. İKT təhsil imkanlarını genişləndirmək potensialına malik olsa da, texnologiyaya əlçatanlıqda gender bərabərsizliyi və onun təsirləri təhsildə mövcud bərabərsizlikləri artıra bilər. Çətinliklərə baxmayaraq, İKT böhran kontekstində qızlar üçün həyati rol oynaya bilər. Belə ki, radio yayımları və onlayn öyrənmə kimi platformalar vasitəsilə təhsili asanlaşdıra bilər. Əfqanıstan və Sierra Leone-dəki təşəbbüslər qızların təhsilini dəstəkləmək üçün radio proqramlaşdırma və rəqəmsal resurslardan istifadə edərək təhsil boşluqlarını aradan qaldırmaq üçün texnologiyanın potensialını nümayiş etdirir.
Bundan əlavə, hesabatda qızların təhsilini dəstəkləməyə yönəlmiş müxtəlif texnologiya əsaslı öyrənmə proqramları vurğulanır. Məsələn, Nigeriyada "Hamı üçün Texnologiyanın Təkmilləşdirilmiş Öyrənmə proqramı"nın təhsildən yayınan 22.000 uşağa dəstək olmaq üçün mobil və radio texnologiyasının tətbiqi nəticəsində xüsusilə qızlar arasında oxu və hesablama bacarıqları yaxşılaşdığı məlum olub. Bundan əlavə bura, təhsil materiallarından ibarət radio yayımları, SMS əsaslı təlim platformaları və planşetlərdə öyrənmə proqramları daxildir ki, bunların hamısı qızların təlim nəticələrinə müsbət təsir göstərir.

02



Eyni zamanda, rəqəmsal texnologiyaya çıxışda xüsusən də qızlar arasında mobil telefon sahibliyi və internetdən istifadə ilə bağlı gender bərabərsizliyi də hesabatda öz əksini tapır. Statistika göstərir ki, kişilərin 81%-i mobil telefondan istifadə etdiyi halda, bu nisbətdə qadınların yalnız 75%-ni təşkil edir. Eyni şəkildə, qadınların 65%-i ilə müqayisədə kişilərin 70%-i internetdən istifadə edir ki, bu da internetdən istifadə edən qadınlardan 244 milyon kişi daha çox qlobal fərqlə nəticələnir. Bu fərqlər daha çox aşağı gəlirli ölkələrdə özünü göstərir.

Qlobal Təhsil Monitorinq Hesabatı 2024 Afrika hökumətlərinin gender ölçü-lərini öz İKT milli planlarına inteqrasiya etmək səylərini qeyd edir. Məsələn, Botsvana öz milli strategiyasının bir hissəsi kimi rəqəmsal savadlılıq və İKT mə-zunları üçün gender-spesifik hədəfləri müəyyən edib. Nigeriya 2023-cü ilə qədər Milli Planı vasitəsilə 5 milyondan çox qızın İKT-dən istifadəsinə imkan yaratmağı hədəfləyir. Rəqəmsal bacarıqlarda gender boşluqlarına gəldikdə, 2014 və 2021-ci illər arasında 90 ölkədən əldə edilən məlumatlar əhəmiyyətli fərqləri göstərir. Məsələn, 15-24 yaşlı gənclər arasında elektron cədvəl bacarıqlarının yayılması aşağı gəlirli ölkələrdə təxminən 1%-dən, yüksək gəlirli ölkələrdə 57%-ə qədər dəyişir. Qlobal Təhsil Monitorinqi Hesabatı 2024 eyni zamanda gənclər arasında proqramlaşdırma bacarıqlarını müzakirə edir və gəlir səviyyələri arasında əhəmiyyətli fərqləri göstərir. Məsələn, proqramlaşdırma bacarıqlarının yayılması aşağı gəlirli ölkələrdə təxminən 0,5%-dən, yüksək gəlirli ölkələrdə 14%-ə qədər dəyişir. Bu boşluğu aradan qaldırmaq üçün “Afrikalı Qızlar Kodlaya Bilər Təşəbbüsü” kimi təşəbbüslər gender fərqini aradan qaldıraraq kodlaşdırma bacarıqlarını artırmaq məqsədi daşıyır. Məlumatlar proqramlaşdırma sahəsində gender priorieti indeksinin yaxşılaşdığını, böyüklər arasında 0,50%-dən gənclər arasında 0,75%-ə yüksəldiyini göstərir. Bununla belə, əhəmiyyətli gender bərabərsizliyi davam edir, ölkələrin 72%-i hələ də qadınların hesabına, 21%-i isə kişilərin hesabına bərabərsizlik nümayiş etdirir. Gənc qadınların hesabına proqramlaşdırma sahəsində nəzərəçarpacaq bərabərsizliyə malik ölkələr yüksək gəlirli Avropa ölkələri hesab olunur. Məsələn, İrlandiya, Macarıstan və Avstriyada proqramlaşdırma bacarığı olan gənc qadınlar kişilərlə müqayisədə nəzərəçarpacaq dərəcədə azdır. Bunun əksinə olaraq, Malayziya, Səudiyyə Ərəbistanı, Albaniya və Fələstin kimi ölkələrdə proqramlaşdırma bacarığı olan gənc qadınlar kişilərdən daha çoxdur. Hesabatda, həmçinin internetdən sui-istifadənin həm onlayn, həm də oflayn formalarına toxunan, rəqəmsal savadlılığın təşviq edilməsi və təhlükəsiz məktəb mühitinin yaradılması üçün hərtərəfli strategiyalar öz əksini tapır. Portuqaliya və Sloveniya kimi ölkələr gənclər arasında onlayn zorakılıq haqqında məlumatlılığı artırmaq üçün təlimatlar və layihələr həyata keçirir.

Həmçinin hesabatda, STEM sahələrində qeyri-bərabərliyin aradan qaldırıl-ması üçün səylər ədalətli təhsilin təşviq edilməsi, gender qərəzlərinin aradan qaldırılması və stereotiplərə qarşı mübarizənin vacibliyi qeyd olunur. Qlobal miqyasda qadınlar STEM sahələrində kifayət qədər təmsil olunmur. Belə ki, STEM məzunlarının yalnız 35%-i qızlardır. Akademik nailiyyətlərə baxmayaraq, qızlar STEM karyeralarını davam etdirməkdən çəkindirən maneələr və qərəzlərlə üzləşirlər. Bu fərqlərin aradan qaldırılması qızların STEM fənlərinə inam, təhsil-karyera inkişafı üçün bərabər imkanlar, STEM sahələrində müxtəliflik və inklüziv-liyi təşviq etmək üçün təşəbbüslər tələb edir. Texnoloji inkişafda gender bərabərliyinin gücləndirilməsinə yönəlmiş siyasət daha balanslı və innovativ işçi qüvvəsi yaratmaq üçün çox vacibdir.
Yekun olaraq, təhsildə gender bərabərliyinə nail olmaq həm struktur maneələri, həm də gender bərabərsizliyini davam etdirən ictimai normaları aradan qaldırmaq üçün birgə səylər tələb edir. İnklüziv siyasətləri və müdaxilələri prioritetləşdirməklə, ölkələr bütün təhsilalanlara səlahiyyət verən daha ədalətli təhsil sisteminin yaradılması istiqamətində irəliləyə bilər.

Hesabatda bu istiqamətdə tövsiyələr təqdim olunur. Bu tövsiyələr gender bərabərliyinə əsaslanan təhsil üçün katalizator kimi texnologiyadan istifadə etmək üçün hərtərəfli çərçivə təklif edir.

Beynəlxalq Təhsil İcmalı
May 2024



Uyğunluq:
Texnologiyanın gender stereotiplərinə yönəlmiş və yaranan problemlərin həllinə malik kurikulumlar və kadr hazırlığı;

Kapital və daxilolma:
Rəqəmsal savadlılığı və bacarıqları artırmaq üçün genderə uyğun təhsil və təlim proqramlarına sərmayə qoymaq;
Texnologiya dizaynında ayrı-seçkiliyin qarşısını almaq və gender balansını təşviq edərək, qızları STEM sahələri və karyeralarına təşviq etmək;

Qiymətləndirmə:
Aydın standartlar və meyarlardan istifadə etməklə təhsil texnologiyası və alqoritmlərinin gender stereotiplərinə və rifahına təsirini qiymətləndirmək;

Davamlılıq:
Onlayn təhlükəsizlik və zorakılıqdan qorunma bacarıqlarını özündə birləşdirən rəqəmsal səlahiyyətlər çərçivəsi yaratmaq.

Mənbə: UNESCO. 2024. Global Education Monitoring Report: Gender report Technology on her terms.

# Həyatı yaxşılaşdırmaq üçün sosial və emosional bacarıqlar: 2023 OECD Sosial və Emosional Bacarıqlar tədqiqatının nəticələri

03

Cari ayda oxuculara "Həyatı yaxşılaşdırmaq üçün sosial və emosional bacarıqlar: 2023 OECD sosial və emosional bacarıqlar tədqiqatının nəticələri" adlı hesabat təqdim olunub. Sosial və Emosional Bacarıqlar üzrə Sorğu (SSES) şagirdlərin sosial və emosional bacarıqlarını, onların əsas həyat nəticələri ilə əlaqəsini anlamaq məqsədi daşıyır.
2023-cü ildə 10 və 15 yaşlı uşaqlarda tapşırıqların yerinə yetirilməsi, emosional tənzimləmə, başqaları ilə ünsiyyət və əməkdaşlıq, açıq fikirlilik kimi bacarıqları ölçən sorğuya 6 ölkədən, 16 mənbədən məlumatlar daxil olub. SSES nəticələri göstərir ki, ümumiyyətlə, oxşar sosial və emosional bacarıqlar həm akademik müvəffəqiyyətlə, həm də daha aşağı səviyyədə davamiyyətlə əlaqələndirilir. Hesabatda qeyd olunur ki, təhsil sistemlərində şagirdlərin akademik nəticələrini yaxşılaşdırmaq üçün bu bacarıqların inkişaf etdirilməsi bir vasitə ola bilər.

Bundan əlavə, hesabatda şagirdlərin yüksək tapşırıq performansı maraq, akademik müvəffəqiyyət, daha sağlam davranışlarla əlaqələndirilir. Eyni zamanda, bununla yanaşı açıq fikirlilik, tapşırıqları yerinə yetirmə bacarıqları isə gələcək təhsil və karyera ambisiyaları ilə əlaqələndirilir. Qeyri-bərabərliyə baxmayaraq, bütün şagirdlər, o cümlədən sosial təminatı aşağı ailələrdən olan şagirdlər arasında yüksək ambisiya qeyd olunur.
Hesabatda, qeyd olunur ki, ünsiyyət və stresə davamlılıq istisna olmaqla, Sosial və Emosional bacarıqların yüksək səviyyəsi bütün fənlərdə daha yaxşı qiymətlərlə əlaqələndirilir. Nailiyyət motivasiyası yaxşı qiymətlərlə ən güclü şəkildə bağlı olan bacarıqdır. Həmçinin, əzmkarlıq, maraq, məsuliyyət və özünə nəzarət qeyd olunur. Bu nəticələr Şagirdlərin Nailiyyətlərinin Beynəlxalq Qiymət-ləndirilməsi Proqramının (PISA) 2022-nin nəticələri ilə üst-üstə düşür.
Belə ki, 50-dən çox ölkədə maraq və əzmkarlıq səviyyəsi daha yüksək olan şagirdlər riyaziyyatda həmyaşıdlarına nisbətən orta hesabla təxminən 11 bal daha çox müvəfəqiyyət nümayiş etdiriblər. Tədqiqat nəticələri göstərir ki, 10 yaşlı məktəblilər, 15 yaşlı məktəblilərlə müqayisədə daha yüksək sosial və emosional bacarıqlar nümayiş etdirirlər. Bundan əlavə, gender fərqləri, xüsusən də yeniyetməlik dövründə, oğlanların emosional tənzimləmə (xüsusilə stresə davamlılıq), enerji, inam və ünsiyyət bacarıqlarının daha yüksək olduğu aydın olmuşdur. Bunun əksinə olaraq, 15 yaşlı qızların daha yüksək səviyyədə tolerantlıq, nailiyyət motivasiyası, empatiya və məsuliyyət nümayiş etdirdiyi də nəticələrdə öz əksini tapmışdır. Eyni zamanda sosial-iqtisadi cəhətdən əlverişsiz ailələrdən olan şagirdlərdə yaradıcılıq, dözümlülük, maraq kimi bacarıqlarda və başqaları ilə qarşılıqlı əlaqədə (özünü təsdiqləmə, ünsiyyət, empatiya kimi) sosial və emosional bacarıqların aşağı səviyyədə olduğu aydın olmuşdur.
Hesabatda həmçinin, 15 yaşlı şagirdlərin sosial və emosional bacarıqları ilə rifah və sağlamlıqlarının müxtəlif ölçüləri arasındakı əlaqə araşdırılmışdır. Sosial və emosional bacarıqlarla aşağıdakı 6 ölçü arasındakı əlaqə qeyd olunur:
-Həyat məmnuniyyəti, şagirdlərin ümumiyyətlə həyatlarından məmnun olma dərəcəsi.
-Mövcud psixoloji rifah. Son iki həftə ərzində şagirdlərin əhval-ruhiyyəsinin göstəricisi.
-Münasibət məmnuniyyəti, şagirdlərin valideynləri, dostları, sinif yoldaşları və müəllimləri ilə münasibət dərəcəsi.

-Şagirdlərin görünüşləri.
-İmtahanlarda və sinifdə narahatlıq (şagirdlərin testlərdə və ya məktəb işlərində mümkün mənfi nəticələrdən və ya uğursuzluqdan narahat olma) dərəcəsi.
-Sağlam davranış, şagirdlərin sağlam həyat tərzinə cəlb edilməsinin göstəricisidir. Bura kifayət qədər yuxu, idman və düzgün qidalanma, siqaret və alkoqoldan imtina daxildir.
Bu yanaşmanın bir hissəsi olaraq nəzərdən keçirilən altı ölçüdən beşi — həyat məmnuniyyəti, münasibətlər, mövcud psixoloji rifah, test və fəaliyyət narahatlığı və bədən anlayışı - sosial, emosional və mədəni rifah kateqoriyasına aiddir. Altıncı ölçü, "Sağlamlıq davranışı", uşaqların rifahına təsir edən bir amil olaraq görülür.



SSES nəticələri, müxtəlif demoqrafik qruplardakı şagirdlərin rifah və sağlamlıq ölçülərindəki sistematik fərqləri göstərir. Sosial-iqtisadi təminatı yüksək ailələrdən olan oğlan şagirdlər yaşadıqları yerdən asılı olaraq bəzi fərqlərlə, sosial-iqtisadi statusu aşağı ailələrdən olan qız şagirdlərdən daha yaxşı sağlamlıq vəziyyətinə sahibdirlər. Kifayət qədər yuxu, müntəzəm fiziki fəaliyyət və sağlam qidalanma da daxil olmaqla sağlam həyat tərzi rifah göstəricilərinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məsələn, 2019-cu ildən 2023-cü ilə qədər Helsinki və Boqotada məktəblilərdə sosial və emosional bacarıqlarda azalma müşahidə olunduğu qeyd edilmişdir. Belə ki, bu bölgələrdə 15 yaşlı uşaqların əksəriyyətində sağlam yuxu vərdişlərinin olmadığı müşahidə olunmuşdur ki, bu da məktəblilərin rifahına təsirsiz ötüşməyib. Hesabatda həmçinin şagirdlərin sosial və emosional bacarıqlarının ali təhsili bitirmək və ya peşəkar karyera qurmaq üçün gözləntilərinə təsiri də araşdırılır. Təhsil sistemləri şagirdləri maraq və bacarıqlarına uyğun gələn yollara yönəltmək məqsədi daşıyır. Sosial və emosional bacarıqları, xüsusən də maraqları aşağı olan şagirdlər, ümumiyyətlə, gələcəkləri ilə bağlı daha az iddialıdırlar. Buna baxmayaraq, şagirdlərin əksəriyyəti ali təhsili başa vurmağı və ya peşəkar işlərə sahib olmağı gözlədiklərini nümayiş etdiriblər.

Hesabatdan aydın olur ki, şagirdlərin karyera planları çox vaxt onların bacarıqları ilə üst-üstə düşür; daha yüksək maraq və yaradıcılığa malik olanlar İKT, elm və mühəndislik sahələrində karyeralarını qurmağa meyllidirlər. Həmçinin daha yüksək empatiya və tapşırıqları yerinə yetirmək bacarığı olanlar isə səhiyyə sektorlarına meyl edirlər. Bundan əlavə, enerji, nikbinlik və yaradıcılıq kimi yüksək sosial və emosional bacarıqlara malik şagirdlərin öz bizneslərini qurmaq ehtimalı daha yüksək olduğu hesabatdan məlum olmuşdur.

Tədqiqat göstərir ki, davamlılıq və əzmkarlıq kimi sosial və emosional bacarıqlar şagirdlərin karyeralarını araşdırmaq qabiliyyətini artıra bilir. Bildirilir ki, 15 yaşlı uşaqlardan hər biri orta hesabla üç-dörd karyera inkişafı fəaliyyəti ilə məşğul olur. Yüksək keyfiyyətli onlayn resurslar və mütəşəkkil karyera fəaliyyətlərinə daha yaxşı çıxış effektiv karyera kəşfi üçün çox vacibdir.

Ümumilikdə, nəticələr göstərir ki, şagirdlərdə bu bacarıqların aşılanması onları təhsil və karyera istəklərinə daha yaxşı hazırlaya bilər.

Mənbə: OECD (2024), Social and Emotional Skills for Better Lives: Findings from the OECD Survey on Social and Emotional Skills 2023, OECD Publishing, Paris, https://doi.org/10.1787/35ca7b7c-en.

Beynəlxalq Təhsil İcmalı
May 2024

# İqlim dəyişikliyinin təhsilə təsiri

World Bank tərəfindən "İqlim dəyişikliyinin təhsilə təsiri" adlı hesabat təqdim olunmuşdur. Hesabatda iqlim dəyişikliyinin qlobal istiləşmə, kataklizmlərin, ekstremal hava şəraitinin və təbii fəlakətlərin təlim nəticələrinə və təhsil sistemlərinə təsirindən bəhs olunur.
İqlim dəyişikliyinin təhsilə mənfi təsirlərini azaltmaq məqsədilə siyasətçilər ağıllı təhsil sistemlərinə və uyğunlaşma tədbirlərinin həyata keçirilməsinə təcili ehtiyac olduğunu vurğulayır və iqlim dəyişiklikləri qarşısında öyrənmənin davamlılığını təmin etmək üçün strategiyalar təklif edir.
Həmçinin hesabatda, Braziliyanın ən isti bölgələrinin yüzdə onunda şagirdlər qlobal istiləşməyə məruz qaldıqları üçün tədris saatlarının təxminən ildə 1%-ni itirdiyi qeyd olunur. Bu o deməkdir ki, orta hesabla bir şagird 12-ci sinfi bitirən zaman 1,5 il arasında dərs buraxmış hesab olunur. Onu da qeyd etmək lazımdır ki, bu bölgələrdə temperaturun artması səbəbindən zamanla məcburi öyrənmə itkiləri təhsil nəticələrinə və şagirdlər üçün gələcək imkanlara əhəmiyyətli təsir göstərə bilər.
Bundan əlavə məktəbdə qidalanma, sosial-emosional proqramlar və dayanıqlı məktəb infrastrukturu da iqlim dəyişikliyi ilə mübarizədə mühüm tədbirlər kimi vurğulanır.
Həmçinin hesabatda iqlim dəyişikliyinin uşaqların öyrənməsinə təsirini azaltmaq üçün məktəblərin yalnız fövqəladə sığınacaq kimi istifadə olunduğu vaxtı minimuma endirmək ehtiyacı da qeyd olunur. Belə ki, iqlimlə bağlı fasilələr zamanı öyrənmənin davamlılığını təmin etmək üçün məsafədən öyrənmə mexanizmlərinin gücləndirilməsi vurğulanır.
İqlim dəyişikliyini azaltmaq, ona uyğunlaşmaq səyləri və təhsil sistemlərini dəstəkləmək üçün məqsədyönlü müdaxilələr mənfi təsirlərin minimuma endirilməsi, təhsilin əlçatanlığı, təhsilə bərabər çıxışın təmin edilməsində mühüm əhəmiyyət kəsb edir.

Hesabatda iqlim dəyişikliyinin təhsil nəticələrinə təsir faktorları da qeyd olunur. Bu davamiyyətin pozulmasına, təhsildə uzunmüddətli fasilələrin öyrənmə itkisinə, şagirdlərin sağlamlığına, rifahına, təhsil imkanlarında bərabərliyin təmin edilməsinə mənfi təsir göstərir. Eyni zamanda, məktəb infrastrukturunun zədələnməsinə, şagirdlərin yerdəyişməsinə, miqrasiyasına səbəb olur.
Kataklizmlər, daşqınlar, meşə yanğınları və ümumiyyətlə təbii fəlakətlər təhsildə fasilələrin yaranmasına əhəmiyyətli təsir göstərir. Məsələn: 2019-cu ildə Idai siklonu Zimbabvedə məktəblərin bir çoxunun infrastrukturunu tamamilə sıra-dan çıxmasına, 2023-cü ildə isə Freddi siklonu Cənubi Afrikanın Malavi bölgəsin-də məktəblərin bağlanmasına səbəb olmuşdur. Filippində məktəblərin 21 faizindən çoxu hər tədris ilində ən azı bir dəfə su altında qalır. Həmçinin, Pakistanda 2022-ci ildə baş verən daşqınlar 3,5 milyon uşağın təhsilində fasilələr yaratmış, ABŞ-da isə meşə yanğınları yüksək yanğın riski olan ərazilərdə məktəblərin bağlanmasına səbəb olmuşdur.

Həmçinin hesabatda temperaturun yüksəlməsinin də öyrənməyə göstərə biləcəyi təsirlərindən bəhs olunur. Belə ki, bu təsirlərə idrak funksiyasının azalması, sinif mühitinin pozulması, davamsızlığın artması, məktəb infrastrukturunun pozulması, öyrənmə itkisi, test nəticələrinin aşağı olması, diqqətin azalması kimi mənfi təsirlər daxildir. Qeyd edilən təsirlər coğrafi yer, sosial-iqtisadi şərait və havalandırma sistemləri uyğunlaşma tədbirlərinin mövcudluğu kimi amillərdən asılı olaraq dəyişə bilər.
Təhsil sistemlərinin dayanıqlılığını təmin etmək üçün hesabatda dörd addım qeyd olunur:
Məsafədən təhsil mexanizmlərinin gücləndirilməsi;
Qeydiyyat kampaniyalarının keçirilməsi;
Sosial təminatı aşağı olan şagirdlərə ünvanlı maliyyə dəstəyinin göstərilməsi;
Qızlar üçün məqsədyönlü və fərdi dəstəyin təmin edilməsi.
Hesabatda həmçinin, təhsil sistemlərinin iqlim dəyişikliyinə uyğunlaşdırılmasına təcili ehtiyac olduğu qeyd olunaraq, dayanıqlılığın və uyğunlaşmanın 4 istiqamətdə aparılması vurğulanır:
-Davamlılıq üçün təhsilin idarə edilməsi. Hökumətlər iqlim dəyişikliyi ilə bağlı təhsilin idarəetmə sistemlərinə inteqrasiya edən siyasət və strategiyalar hazırlamalı və həyata keçirməlidir. Bura iqlim dəyişikliyinə uyğunlaşan kurikulumun hazırlanması, müəllim hazırlığı və məktəb idarəetmə təcrübələri daxildir;



-Mövcud məktəb binalarının dayanıqlılığının gücləndirilməsi və yeni tikinti üçün innovativ təcrübələrin mənimsənilməsi. Hökumətlər iqlim dəyişikliyinin təsirlərinə tab gətirə bilən davamlı məktəb infrastrukturuna sərmayə qoymalıdırlar. Buna məktəblərin təhlükəsiz yerlərdə tikilməsi, iqlimə davamlı tikinti materialları, dizaynlarından istifadə edilməsi, məktəb binalarının lazımi səviyyədə saxlanmasının və təmirinin təmin edilməsi daxildir;

-İqlim dəyişiklikləri zamanı öyrənmə davamlılığının təmin edilməsi. Hökumətlər iqlimlə bağlı fəlakətlər zamanı və sonra öyrənmənin davamlılığını təmin etmək məqsədilə fövqəladə hallar üçün plan və strategiyaları hazırlamalıdırlar. Bu müvəqqəti öyrənmə məkanlarının yaradılması, məsafədən təhsil texnologiyalarına çıxışın təmin edilməsi və fasilələrin aradan qaldırılması üçün çevik məktəb cədvəllərinin həyata keçirilməsini əhatə edə bilər;

-Müəllim və şagirdlərin eko fəallar kimi istifadə edilməsi. Hökumətlər müəllim və şagirdləri iqlim dəyişikliyinin azaldılmasında, uyğunlaşma səylərində fəal iştirakçı olmaq üçün hazırlamalıdır. Bu, iqlim dəyişikliyi üzrə təhsilin kurikuluma daxil edilməsi, ətraf mühitin davamlılığı üçün şagirdlərin eko layihələrə cəlb edilməsi və müəllimlərin iqlim dəyişikliyi mövzularını tədrisə inteqrasiyası üçün peşəkar inkişaf imkanlarının təmin edilməsi yolu ilə həyata keçirilə bilər.

Bu dörd yanaşma birlikdə həyata keçirildikdə, təhsil sistemlərini iqlim dəyişikliyinin mənfi təsirlərindən qorumağa, təhsilin hamı üçün davamlı və əlçatan olmasını təmin etməyə kömək edə bilər.

Mənbə: enegas Marin, S., Schwarz, L., & Sabarwal, S. (2024).  The Impact of Climate Change on Education and What to Do About It.